

■ **Kamal**

## TƏNHALIQ

Qəlbimə od salıb getdi gözəl yar,
Təsəlli yerimdi qara gecələr.
Gündüzlər buludlar ağlayar mənə,
Çəkir varlığımı dara gecələr.

Ayrılıq tək qoydu məni özümlə,
Həsrətin səslədi xatirələri.
Sahilsiz dənizdə boğuluram mən,
Gümanım ümmanda itəndən bəri.

Dərdimi söylədim qəmli göylərə,
Buludlar sevgimə əza saxlayır.
Bu boyda dünyada tənha qalmışam,
Gözlərim gülsə də, könlüm ağlayır.

## HİSSLƏR

Vəfasız mələyim gəl dön geriyə,
Yenə də qoymusan məni tək, tənha,
Ölərəm mən sənsiz deyirdin mənə,
Sənsiz boş məzardır bu gözəl dünya

Duyuram ətrini xatirələrdən,
Bu idi yaşamaq birgə həmişə?!
Əvvəllər bilmirdim, gözlərimdən qəm,
Su səpib sən gedən yola beləcə.

Dalğalar o qədər arzu aparır,
Xoşbəxt bir sahilə toxunsun deyə.
Ləpələr özünü qayaya çırpır,
Ayrılıq lövbərin sancıbdı yerə.

Son nicat qəmimi batırdın, sağ ol,
Yaşamaq həvəsi yox ürəyimdə.
Sən də sev, xoşbəxt ol, birinə yar ol,
Hər nəfəs yenidən ölürəm mən də.

Duymuram tənhalıq hissini hələ,
Həsrətin, dərd,  qəmi çiynimə qonub.
Onlar da xəyanət etsələr mənə,
Xəyalın həmişə yanımda durur.

Göz yaşım, harayım, bu nidam səni,
Bilirdim qaytarmaz daha geriyə.
Sözlərdən alıram son təsəllimi,
Bunu da çox görmə, çox görmə mənə.

## AYRILIQ

Qəmli-qəmli baxışını,
Görən haçan unudacam?
Mən axıtdım göz yaşını,
Elə mən də qurudacam.

Unutmağa söz verirəm,
Sən özün də unutma heç.
Bir gün məndən ayrılarsan,
Bəlkə də tez, bəlkə də gec.

Yenə bir vaxt görüşəndə,
Darıxmışdım deməyəcəm.
Ayrılığın yağışında,
Səssiz gözündən enəcəm.

Öz əhdimə sadiqəm mən,
Düşünmə ki, başqası var.
Əvvəl eşqdə yoxdursa qəm,
Sonunda çoxdur acılar.

Mən dadmışam ayrılığı,
Sənə rəva bilərəm heç?!
Gözündə var qəm ləşkəri,
Bu sevgidən əl çək, vaz keç.

Bilirəm ki, bu arzuya,
Çatmaq mümkün deyil əsla.
Bəri başdan niyyət elə,
Sevib sonra peşman olma.

Çox dedilər bu sözləri,
Dərd vardısa var dərman da,
Bir aşiqsə böylə dedi:
- Təbib yoxsa nədir fayda?!

Qorxma, bu son deyil hələ,
Görüşəcik yuxularda,
Ölüm qonaq gəlsə kimə,
Anlayar ki, həyat röya.